<table>
<tr><td rowspan="9">Ümumi məlumat</td><td>Fənnin adı, kodu və kreditlərin sayı</td><td>ARCH 114 Layihələndirmənin əsasları- 2  6 AKTS</td></tr>
<tr><td>Departament</td><td>Memarlıq və dizayn departamenti</td></tr>
<tr><td>Proqram (bakalavr, magistr)</td><td>Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td>2024/25-cü tədris ilinin payız semestri</td></tr>
<tr><td>Fənni tədris edən müəllim (lər)</td><td>Saleha Kərimova</td></tr>
<tr><td>E-mail:</td><td>saleharchitectt@gmail.com</td></tr>
<tr><td>Telefon:</td><td>+994 51 917 78 77</td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td>Neftçilər korpusu, 109N<br>5-cш günlər:<br>15:20-16:50<br>17:00-18:30</td></tr>
<tr><td>Məsləhət saatları</td><td>Tələbələrlə razılaşdırılan vaxtlarda</td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="2">ARCH 113 Layihələndirmənin əsasları</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="2">İngilis</td></tr>
<tr><td>Fənnin növü (məcburi, seçmə)</td><td colspan="2">Məcburi</td></tr>
<tr><td>Dərsliklər və əlavə ədəbiyyat</td><td colspan="2">Dərsliklər:<br>1. Nağıyev N.H., Abbasova Ş.A. Ağamalıyeva İ. və Məmmədxanova L.İ. “Layihələndirmənin əsasları” dərslik. Bakı-2014;<br>2. Ş.Fətullayev “Bakıda şəhərsalma XIX əsr və XX əsrin əvvəllərində ” Bakı-2013<br>3. Şevki Vanlı Mimarlık Vakfı“Mimarlık üzerine on kitap-Vitruvius”2021<br>4. Neufert – “Yapı Tasarımı” 2022<br>5. The Architecture Reference & Specification Book. Julia McMorrough 2013</td></tr>
<tr><td>Kursun təsviri</td><td colspan="2">Fənnin tələbə tərəfindən öyrənilməsi - layihələndirmə kateqoriya və prinsipləri haqında anlayışı açıqlayan nəzəri və təcrübi hissədən ibarətdir..Bu fənn tələbələrə memarlıqda ilk addımlarını atmağa və sərbəst şəkildə memar olaraq praktiki tapşırıq əsasında layihələndirməyə imkan verəcəkdir.</td></tr>
<tr><td>Kursun məqsədləri</td><td colspan="2">Fənnin öyrənilməsində məqsəd memarlıq nəzəriyyəsi haqqında anlayış,bina və qurğuların tipləri,struktor tərkibi,binanın həcmi –planlaşma xarakterləri,layihənin tərkibi,tikinti norma və qaydaları,eskiz və final (işçi)layihə haqqında nəzəriyyələrə yiyələnməkdir. Memarlıq proqramı hazırlanır, konseptual çərçivə yaradılaraq vahid layihə yaradılır. Bu fənn- layihələndirmənin müxtəlif prinsiplərinin həm yaradıcılara, həm də istifadəçilərə təsirini araşdıraraq, layihənin həqiqətən dizaynerlər üçün nə demək olduğunu öyrədir. Bütün bunlardan əlavə tələbələr keçilən mövzu barədə layihə-eskiz və final layihələri hazırlamalı və təqdim etməlidir.</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="2">• Görüləcək layihənin mövzusundan asılı olaraq araşdırmalar</td></tr>
</table>

| | |
|---|---|
| | aparır,eskizlər hazırlayır, təsdiq olunmuş son axtarışa əsasən layihə hazırlayır.<br>• İlkin və ya yenidənqurma layihələr haqqında bacarıqlara nail olur.<br>• Layihə təqdim etmək bacarıqları əldə edir.<br>• Layihə problemlərinə qarşı tənqidi düşüncəni inkişaf etdirir.<br>• Tam memarlıq və dizayn layihəsi haqqında biliklərə yiyələnir.<br>• Erqanomika və standartlara aid bilikləri inkişaf etdirir.<br>• Tikililərin əsas və köməkçi elementləri haqqında biliklər əldə edir.<br>• Eksteryer və ya interyer dizayn tərtibatında nəzərə alınmalı əsas memarlıq elementləri haqqında biliklərə yiyələnir.<br>• Layihə tərtibatı,təqdimatı,layihənin dili,kompozisiyası haqqında elmi təcrübələr əldə edir.<br>• Maket işləri ilə, səthlərin və memarlıq elementlərinin məkan təşkilini mənimsəyir.<br>• Təsəvvür və yaradıcı təfəkkürün inkiaf etdirilməsinə nail olur. |

| | | |
|---|---|---|
| **Tədris metodları** | Mühazirə | x |
| | Qrup müzakirəsi | x |
| | Praktiki tapşırıq | x |

| | | | |
|---|---|---|---|
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | **Tapşırıq** | | 10 |
| | **Fəallıq** | | 15 |
| | **Davamiyyət** | | 5 |
| | **Aralıq imtahanı** | | 30 |
| | **Final imtahanı** | | 40 |
| | **Yekun** | | 100 |

| | |
|---|---|
| **Qaydalar**<br>**(Tədris siyasəti və davranış)** | Tapşırıq<br>Fənn müəllimi tərəfindən əsasən praktiki tətbiq olunacaq mövzular üzrə semestr müddətində bir dəfə veriləcək. Tələbələr tapşırığı fərdi şəkildə hazırlamalı və dərsdə təqdim etməlidir. Məzmunundan asılı olaraq, tapşırıqlar qrafik və maket formada tələb olunacaqdır.<br>Aralıq (30 bal) və final (40 bal) imtahanında dəyərləndiriləcək.<br>Praktiki tapşırıq mütləq tələbə tərəfindən aralıq imtahan üçün A3 formatında və maket şəkilində, Final imtahanı üçün nəzərdə tutulan praktiki tapşırıq isə 50x50 planşet üzərində və maket formatında təqdim olunmalıdır. Bu tapşırıqların məqsədi gələcək memarlarda həcmi-məkan anlayışının formalaşmasına kömək etmək və memarlıq çertojlarını sərbəst şəkildə hazırlayıb təqdim etməsidir.<br>Aralıq imtahanından əvvəl sentyabr və oktyabr ayları ərzində ilkin tapşırıq təhvil veriləlidir. Tapşırıq 10 bal üzərindən qiymətləndirilir. Sonuncu dərs həftəsindən sonra təhvil vermək üçün əlavə vaxt verilmir. Tələbələrin praktiki iş təhvili imtahan günü təyin olunur, qiymətləndirmə departamentin təyin etdiyi komissiya tərəfindən aparılır. |

| | |
|---|---|
| | İstisna: Fakültə dekanlığına tələbə öncədən üzrlü səbəbdən (ailəvi vəziyyət və səhhətlə bağlı) təslim işində iştirak edə bilməyəcəyi haqda məlumat vermişsə, və ya sonra bununla əlaqədar hər hansı bir sənəd (ərizə və ya arayış) təqdim edibsə, yalnız bu halda tələbə gec təslim edə bilər.<br>Davamiyyət<br>Dərsə davamiyyətə görə verilən maksimum bal 5 baldır. Balın miqdarı əsasən: tələbə semestr ərzində fənn üzrə bütün dərslərdə iştirak etdiyi halda ona 5 bal verilir. Fənn üzrə semestr ərzində buraxılmış dərs saatlarının ümumi sayı normativ 25%-dən müəyyən olunmuş (xəstəlik, ailə vəziyyəti və s.)həddən yuxarı olduğu halda tələbə imtahan sessiyasına buraxılmır və onun haqqında müəyyən qərar qəbul edilir.<br>İmtahanlar<br>Aralıq imtahanı fevral və mart ayında tədris olunan mövzular üzrə verilən praktiki tapşırığın, final imtahanı aprel və may ayında tədris olunan mövzular əsasında praktiki tapşırığının təslimi keçiriləcəkdir.<br>Fənni bitirmək qaydası<br>Tələbənin biliyi maksimum 100 balla qiymətləndirilir. Kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60 % və daha yuxarı hesab edilir. Kəsri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.<br>Tələbənin davranış qaydaları<br>Tələbə Universitetin daxili nizam-intizam qaydalarını pozmaq və mobil telefondan istifadəsinə icazə verilmir. |

**Cədvəl**

| **Həftə** | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
|---|---|---|---|
| 1 | 20.09.2024 | *Memarlıqda eskiz layihə nədir,məqsədi və mərhələləri;*<br>*Tanışlıq, mövzunun təqdim edilməsi və kursun tətbiqi metodunun izahı* | 1. Mühazirə mövzuları (prezentasiya 1)<br>2. Mühazirə mövzuları (prezentasiya 2) |
| 2 | 27.09.2024 | *Bir mərtəbəli villa layihəsinin tərkib hissələri*<br>*Villa tipli tikililərin tiplologi xüsusiyyətləri* | 1. Mühazirə mövzuları (prezentasiya 3) |
| 3 | 04.10.2024 | *Bir mərtəbəli villa layihəsinin konsepsiya axtarışı*<br>*Ərazi analizləri*<br>*Verilmiş tapşırığa əsasən,axtarışlar əsasında müzakirələr.* | 1. Mühazirə mövzuları (prezentasiya 4) |
| 4 | 11.10.2024 | *Layihənin plan və baş plan cizgisinin hazırlanması* | 1. Mühazirə mövzuları (prezentasiya 5) |
| 5 | 18.10.2024 | *Layihənin dam planının və kəsik cizgilərinin hazırlanması* | 1. Mühazirə mövzuları (prezentasiya 6) |
| 6 | 25.10.2024 | *Layihənin fasad cizgilərinin hazırlanması*<br>*Tikililərdə material seçimi* | 1. Mühazirə mövzuları (prezentasiya 7) |
| 7 | 01.11.2024 | *Layihənin fasad cizgilərinin və eskiz 3d görünüşlərin hazırlanması* | 1. Mühazirə mövzuları (prezentasiya 8) |
| 8 | 08.11.2024 | **Bayram** | |
| 8 | 15.11.2024 | **Aralıq imtahan** | |
| 9 | 22.11.2024 | *Yaşayış tikililərində işıqlandırma*<br>*Layihənin eksteryer həllərinin hazırlanması* | 1. Mühazirə mövzuları (prezentasiya 9) |
| 10 | 29.11.2024 | *Yaşayış tikililərinə dair normativ sənədlər* | 1. Mühazirə mövzuları |

| | | | |
|---|---|---|---|
| | | | (prezentasiya 10) |
| 11 | 06.12.2024 | *Yaşayış tikililərində işıqlandırma*<br>*Layihənin eksteryer həllərinin hazırlanması* | 1. Mühazirə mövzuları (prezentasiya 11) |
| 12 | 13.12.2024 | *Layihənin maket formada hazırlanması* | 1. Mühazirə mövzuları (prezentasiya 12) |
| 13 | 20.12.2024 | *Maketin hazırlanması*<br>*İşlərin tərtibatı.* | 1. Mühazirə mövzuları (prezentasiya 13) |
| 14 | 27.12.2024 | *İşlərin yoxlanılması.*<br>*İşlərin tamamlanması və qəbulu.* | 1. Mühazirə mövzuları (prezentasiya 14) |
| **Final imtahanı** | | | |

**Təsdiq edir: ______________________**

Memarlıq və dizayn departamentinin rəhbəri